**DOI: https://doi.org/10.59849/2957-3882.2025.2.35**
**UOT821.512.161**

# ORXAN PAMUK YARADICILIĞINDA SİYASİ MƏSƏLƏLƏRİN POSTMODERN İFADƏSİ

**Aytən TAĞIYEVA**
*AMEA Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu*
*Kiçik elmi işçi*
*E-mail: ayten.reshidli@gmail.com*
*ORCİD: 0009-0001-7212-4147*

*Daxilolma tarixi: 10.10.2025*
*Düzəliş tarixi: 20.10.2025*
*Nəşrə təsdiq tarixi: 29.10.2025*

## XÜLASƏ

Görkəmli türk yazıçısı, Nobel mükafatı laureatı Orxan Pamuk "Qar", "Mənim adım Qırmızıdır", "Vəba Gecələri" və "Qara Kitab" romanlarında siyasi, dini və ideoloji məsələləri postmodern estetika kontekstində ədəbi diskursa daxil etmişdir. Müəllif bu əsərlərində müasir Türkiyə cəmiyyətində mövcud olan ideoloji ziddiyyətləri, dini dəyərlərlə dövlət siyasəti arasındakı qarşıdurmaları və fərdi kimlik üzərindəki siyasi-ictimai təsirləri dərin təhlil obyektinə çevirmişdir. Xüsusilə "Qar" romanında Pamuk, Türkiyə cəmiyyətindəki siyasi gərginlikləri üç əsas ideoloji istiqamətdə təqdim edir: islamçılar, dövlətin dinə nəzarət mexanizmini təmsil edənlər və sol yönümlü müxalifət. Romanda hadisələrə təkqütblü münasibət yox, polifonik – yəni çoxsəsli – yanaşma mövcuddur ki, bu da postmodernizmin əsas göstəricilərindən biridir. Əsərdə 1980–1990-cı illərdə Türkiyədə baş verən siyasi hadisələr dekonstruktiv yanaşma ilə təqdim olunur və "qar" obrazı həm unudulmanın, həm də baş verənlərin üzərini örtən simvolik pərdə kimi təqdim edilir.

"Mənim adım Qırmızıdır" romanında isə yazıçı milli kimlik və Qərb təsirlərinə qarşı müqavimət məsələsini ön plana çıxarır, sənət və ideologiya münasibətinə postmodern yanaşma ilə yanaşır. Pandemiya dövründə yazılmış "Vəba gecələri" romanında isə Pamuk vəba xəstəliyinin fonunda demokratiya və avtoritar idarəetmə formaları arasındakı ziddiyyəti tənqid edir. "Qara Kitab" romanında fərdin kimlik axtarışı fonunda bir toplumun tarixi, mədəni və ideoloji özünüdərk prosesi simvolik dillə ifadə olunur.

***Açar sözlər:*** *Orxan Pamuk, roman, postmodernizm, siyasi roman, tarix*

# ПОСТМОДЕРНИСТСКОЕ ВЫРАЖЕНИЕ ПОЛИТИЧЕСКИХ ВОПРОСОВ В ТВОРЧЕСТВЕ ОРХАНА ПАМУКА

**Айтен ТАГИЕВА**
*Младший научный сотрудник*
*Институт востоковедения имени З. М. Буниятова НАНА*
*E-mail: ayten.reshidli@gmail.com*
*ORCID: 0009-0001-7212-4147*

*Дата поступления: 10.10.2025*
*Дата исправления: 20.10.2025*
*Дата утверждения к публикации: 29.10.2025*

## АННОТАЦИЯ

Выдающийся турецкий писатель Орхан Памук в своих романах «Снег», «Меня зовут Красный», «Ночи чумы» и «Чёрная книга» художественно переосмысливает политические, религиозные и идеологические вопросы через призму постмодернизма. В этих произведениях автор глубоко исследует идеологические противоречия современного турецкого общества, столкновение между религиозными ценностями и государственной политикой, а также влияние социополитических процессов на формирование индивидуальной идентичности.

Особенно в романе «Снег» Памук выделяет три основные идеологические направления в политической системе Турции: исламисты, сторонники государственного контроля над религией и левую оппозицию. В произведении отсутствует единая точка зрения, вместо этого используется полифонический (многоголосый) подход, что является характерной чертой постмодернизма. Политические события 1980–1990-х годов подвергаются деконструкции, а образ снега символизирует завесу забвения и очищения, покрывающую реальные события.

В романе «Меня зовут Красный» автор поднимает вопросы национальной идентичности и сопротивления западному влиянию, раскрывая их через художественные и идеологические конфликты. В написанном в период пандемии романе «Ночи чумы» Памук открыто критикует противоречие между демократией и авторитаризмом на фоне эпидемии. В «Чёрной книге» поиск личной идентичности становится метафорой коллективного стремления к осмыслению исторического, культурного и идеологического бытия общества.

***Ключевые слова:*** *Орхан Памук, роман, постмодернизм, политический роман, история*

# THE POSTMODERN EXPRESSION OF POLITICAL ISSUES IN THE WORKS OF ORHAN PAMUK

**Aytan TAGHIYEVA**
*Junior Researcher*
*Institute of Oriental Studies named after Z.M. Bunyadov, ANAS*
*E-mail: ayten.reshidli@gmail.com*
*ORCID: 0009-0001-7212-4147*

*Date of submission: 10.10.2025*
*Date of revision: 20.10.2025*
*Date of acceptance for publication: 29.10.2025*

## ABSTRACT

The renowned Turkish author Orhan Pamuk, in his novels *Snow, My Name is Red, Nights of Plague,* and *The Black Book*, artistically explores political, religious, and ideological issues through a postmodern lens. In these works, Pamuk offers a profound examination of the ideological divisions in modern Turkish society, the tensions between religious values and state policy, and the impact of socio-political forces on individual identity formation.

In *Snow*, Pamuk categorizes Turkey's political dynamics into three main ideological groups: Islamists, proponents of state control over religion, and the left-wing opposition. The narrative adopts a polyphonic (multi-voiced) perspective rather than presenting a single truth, a key feature of postmodernism. The political events of the 1980s and 1990s are deconstructed, with the symbol of snow representing a veil of forgetfulness and purification that obscures past realities.

In *My Name is Red*, Pamuk foregrounds the issue of national identity and the resistance to Western influences, blending artistic and ideological conflict within a postmodern structure. In *Nights of Plague*, written during the pandemic, he openly critiques the tension between democracy and authoritarianism in the context of a public health crisis. Finally, *The Black Book* portrays the individual's search for identity as a symbolic reflection of society's broader quest for historical, cultural, and ideological self-understanding.

***Keywords:*** *Orhan Pamuk, novel, postmodernism, political novel, history*

## Giriş

Postmodern roman, ənənəvi ədəbi formaları və düşüncə sistemlərini sual altına alan bir estetik yanaşma olaraq, siyasət və hakimiyyət anlayışlarına da fərqli baxış təqdim edir. Ənənəvi realist romanlarda siyasi motivlər adətən konkret hadisələr, personajların ideoloji mövqeləri və sosial mühitin birbaşa təsviri üzərindən təqdim olunurdusa, postmodern roman bu mövzuları daha çox dolayı yollarla – struktural oyunlar, çoxsəslilik, ironik diskurs və intertekstual əlaqələr vasitəsilə qurur.

Müasir dünya ədəbiyyatında postmodernizm estetikası ilə fərqlənən buyazıçılardan biri də Nobel mükafatına layiq görülmüş türkiyəli müəllif Orxan Pamukdur. Elə bu səbəbdən də tədqiqatın əsas obyekti Pamuk yaradıcılığıdır. O, romanlarında fərqli zaman və məkanlarda baş verən ictimai-siyasi hadisələri bədii kontekstdə təqdim edərək, oxucunu yalnız süjet axını ilə deyil, eyni zamanda fəlsəfi və ideoloji dilemmalarla da qarşı-qarşıya qoyur. Pamukun yaradıcılığında siyasi məsələlərin təsviri yalnız səthi bir motiv olaraq qalmır, əksinə, postmodern estetik yanaşmalar vasitəsilə çoxlaylı mənalandırma imkanları ilə zənginləşdirilir. Onun romanlarında fərdi talelərin fonunda təqdim olunan siyasi hadisələr – dövlət və vətəndaş münasibətləri, din və ideologiya qarşıdurması, modernləşmə və ənənə arasındakı ziddiyyətlər, milli kimlik problemi – həm Türkiyənin, həm də ümumilikdə Şərq cəmiyyətlərinin inkişafında önəmli rol oynamış mürəkkəb məsələlərin bədii ifadəsinə çevrilmişdir.

Orxan Pamuk postmodern roman poetikasının təməl xüsusiyyətlərindən olan polifoniya, intertekstuallıq, metafiksiya, simvolizasiya, tarixi dekonstruksiya, mətnin özünə referensiyası kimi üsullardan istifadə etməklə, oxucunu mətnin passiv istehlakçısına çevirmək əvəzinə, onu daim düşünməyə, fərqli baxış bucaqlarından məsələlərə yanaşmağa təşviq edir. Bu xüsusda onun əsas əsərlərindən sayılan "Qar", "Mənim adım Qırmızıdır", "Vəba Gecələri" və "Qara kitab" romanları xüsusilə diqqət çəkir. Bu əsərlərdə siyasi problematika müxtəlif zaman və məkan kəsimlərində təqdim olunaraq, həm konkret tarixi kontekstdə dəyərləndirilir, həm də ümumbəşəri dəyərlər sisteminə inteqrasiya olunur.

"Qar" romanında 1990-cı illər Türkiyəsində ideoloji qütbləşmənin, din-dövlət münasibətlərinin, kimlik axtarışlarının fərdi və cəmiyyət səviyyəsində yaratdığı psixoloji və sosial gərginliklər dərin bədii təsvirlərlə verilir. Roman Qars şəhəri timsalında Türkiyənin siyasi və ideoloji mənzərəsini təqdim edir. "Mənim adım Qırmızıdır" romanında isə Osmanlı imperiyasının son dövrlərində Şərq və Qərb təsviri sənətləri arasında gedən mübarizə fonunda mədəniyyət və identiklik məsələləri ön plana çəkilir. Digər tərəfdən, Pamukun pandemiya dövründə yazdığı və nəşr etdirdiyi "Vəba Gecələri" romanı postmodern tarixi roman nümunəsi kimi çıxış edərək, vəba xəstəliyi kontekstində Osmanlı idarəçiliyinin zəifliklərini, siyasi böhran və avtoritarizmin fəsadlarını simvolik dillə ifşa edir. Pamukun digər mühüm siyasi məzmunlu əsərlərindən biri olan "Qara Kitab" isə fərdi yaddaş, kimlik böhranı və ictimai manipulyasiya mövzularını birləşdirərək, Türkiyədə siyasi sistemin və media ideologiyasının insan şüuruna təsirini postmodern prizmadan nümayiş etdirir.

Bütün bu romanlarda siyasi məsələlərin postmodern yanaşmalarla təqdim olunması, yazıçının nəinki zaman və məkan çərçivəsini aşaraq universal siyasi problemləri gündəmə gətirdiyini, eyni zamanda fərdi kimlik və kollektiv yaddaş arasındakı münasibətləri ədəbi müstəvidə yenidən qurduğunu göstərir. Tədqiqat işində məqsəd Orxan Pamukun adıçəkilən romanlarında siyasi mövzuların postmodern estetik çərçivədə necə ifadə olunduğunu araşdırmaq, bu əsərlərdəki simvolik strukturların, çoxqatlı məna sistemlərinin və polifonik yanaşmanın siyasi diskurs yaratmaq baxımından necə funksional olduğunu ortaya qoymaqdır.

## Əsas mətn

Böyük filosof Platon "doğru" anlayışının mücərrəd və insan duyğularından kənar, dillə tam ifadə oluna bilməyən bir konsept olduğunu müdafiə etmişdir. Onun nəzərincə, dil doğru bilik əldə etmək prosesində məhdudlaşdırıcı rol oynayır. Platonun tələbəsi Aristotel isə müəllimindən fərqli olaraq, ideyaların başqa dünyada mövcudluğunu deyil, həqiqətin real dünyada axtarılmasını əsas götürən daha realist yanaşma nümayiş etdirir. Postmodern tədqiqatçı Mişel Fuko Aristotelin

realizmini təhrif edərək, biliyin obyektivliyi ilə bağlı şübhələr irəli sürür. Fukoya görə, bilik mütləq şəkildə hakimiyyətin (yəni iqtidarın) dili ilə ifadə olunan, birmənalı olmayan bir anlayışdır. Poststrukturalistlər Fukunun bu ideyasını daha da genişləndirərək vurğulayırlar ki, "hakim ideologiyalar" informasiya ötürmək üçün dili bir vasitə, hətta bir silah kimi istifadə edir. Onlar dil ilə idrakı bir-birinə bərabər tuturlar (Quliyev, 156–157). Bu məlumatlar onu göstərir ki, postmodernistlər siyasi diskursa tamamilə başqa istiqamətdə baxırlar. Belə ki, postmodern roman siyasi məsələləri açıq təbliğ etmir və oxuculara problemi ancaq dolayı yollarla göstərir. Burada dil və onun çoxqatlı strukturu çox önəmli rol oynayır. Beləliklə, postmodernistlər dilin mətn yaratdığını, mətnin isə dilin təqdimat forması olduğunu bildirirlər; oxucuya mətnin əsasən dilin qaydaları əsasında qurulmuş bir oyun olduğunu göstərirlər. Buna görə də dil və mətn bir-birindən ayrılmazdır: dil mətnin, mətn isə dilin təzahürüdür. Tədqiqatda Orxan Pamuk yaradıcılığında siyasi məsələlərin dil oyunları vasitəsi ilə postmodern yazı tərzinə xas necə dekonstruksiya olunduğu təhlil olunmuşdur.

Orxan Pamuk "Qar" (Pamuk, 2002) romanını özünəməxsus yaradıcılıq üslubu ilə yazmışdır. Əsəri oxuyan oxucuya bir daha aydın olur ki, dünyanı, insanları, ətrafda baş verən siyasi prosesləri və s. tam anlamaq qeyri-mümkündür. Pamuk uzun illər ərzində Türkiyədə baş verən siyasi hadisələri 428 səhifəyə sığdıraraq irihəcimli roman yazmışdır. Əsərdə zaman anlayışının itməsi və hadisələrin iç-içə verilməsi postmodern yazı üslubuna məxsus xüsusiyyətdir. Yazıçı 1980-90-cı illərdə baş vermiş Türkiyənin demək olar ki bütün siyasi məsələrinə həm üstüörtülü, həm də açıq şəkildə toxunmuşdur.

Əsərdə hadisələr Qars ərazisində baş verir. Qars sanki Türkiyənin kiçildilmiş maketidir. Türkiyədə siyasi roman üçün seçilə biləcək ən uğurlu məkandır. Əvvəlcə onu qeyd etmək lazımdır ki, Qars Türkiyənin ən qədim vilayətlərindən biridir. Qars Şərqi Anadolu bölgəsinin şimal-şərqində yerləşir. Ərazi tarix boyu dəfələrlə baş vermiş Rus-Türk müharibələrində əldən-ələ keçmişdir. Hətta qısa müddət ingilislərin və ermənilərin əsarəti altında olmuşdur. Bu günə qədər də ermənilərin həmin ərazi ilə bağlı iddiaları vardır. Rusların Qara dənizə ordan da, Aralıq dənizinə çıxış, türklərin isə Sovetlər Birliyinə bağlanış nöqtəsi kimi bu şəhərin özünəməxsus taleyi var. Qars özündə Şərq və Qərb mədəniyyətlərini birləşdirir. Bu şəhər müxtəlif etnik qurupların: türklərin, kürdlərin, azərbaycanlıların, ermənilərin və s. yaşadığı məkandır. Onu da qeyd etmək lazımdır ki, Qars şəhəri Çar Rusiyasının dövründə yenidən qurulmuş və burada qədim rus binaları tikilmişdir. Yazıçı roman boyunca qədimi rus binalarından çox geniş söz açmışdır. Ruslar ənənəvi siyasətlərini burada davam etdirmiş, ermənilərin burada yaşamağına, hətta öz torpaqları kimi burada kök salmaqlarına hər cür şərait yaratmışdır. Ona görə də, yazıçı tez-tez boş qalmış erməni, rus evlərindən, tikililərindən bəhs edir. (Pamuk, 2002, s.17, 57, 164)

Orxan Pamuk "Qar" romanı ilə Türkiyənin bir çox siyasi problemlərini qələmə alaraq oxucunu qarlı Qars küçələrində gəzdirir. Belə ki, əsər siyasi olduğundan oxucular tərəfindən birmənalı qarşılanmamışdır.

Romanda oxucu İran islamçılarının, kürd dindarlarının islamçı təşkilatının, kürd komunist təşkilatının və s. siyası qurumların bir-biri ilə çirkin mübarizə apardığının, iqtidarın isə bunların hər biri ilə ayrı-ayrı haqq-hesab çəkdiyinin şahidi olur. Ancaq təəssüf doğuran səbəb budur ki, xalqını dərindən sevib, onun dərdinə çarə axtararaq çarəsizləşən türk oğulları-Lacivərt, Nəcib və s. ölümə məhkum olurlar, bir-birlərinin qatilinə çevrilirlər. Qarsda İran İslamçı təşkilatının rəhbərlərindən olan Lacivərtin Ka ilə ilk görüşü maraqlı dialoqlarla yadda qalmışdır. Siyasi qəhrəman Kaya Firdovsinin "Şahnamə" əsərində olan Rüstəm və Zöhrabın hekayəsini dərin duyğularla nəql edərkən (Pamuk, 2002, s.79-82) öz taleyinin də Zöhrabınkı kimi acınacaqlı bitəcəyindən xəbərsiz idi. Əslində Orxan Pamuk bu hekayənin vasitəsi ilə xalqın baş verən hadisələrdə nə qədər günahsız olduğunu göstərməyə çalışmışdır. Oxucuya aydın olur ki, atanı oğula, qardaşı qardaşa qırdıran qüvvələr xaricdən idarə olunur, günahsız xalq isə baş verən siyasi oyunlardan xəbərsizdir.

Əsərin əsas qəhrəmanı Kanın Qarsa gəlişi diqqəti tez cəlb edir. Özünü daxilən türk hesab edən, ancaq qiyafəsindən bir avropalı olduğu hiss olunan bu adamın intihar edən qızları araşdırması siyasi təşkilatların nəzərindən qaçmır. (Pamuk, 2002, s.9, 38) Dövlət qəzeti tərəfindən göndərilsə də

əsilində siyasətdən baş çıxarmayan Ka tez bir zamanda siyasi dairələrin əlində oyuncağa çevrilir. Tək arzusu İpəklə evlənib Frankfurta qayıtmaq və ömrünün sonuna kimi xoşbəxt yaşamaq olsa da, qəhrəmanımız siyasi oyunlara qarışdığı üçün arzusuna çata bilmir, şəhəri tək tərk etməli olur. Qarsda yazdığı şeirlərini çapa hazırladığı bir dövrdə isə sui-qəsd nəticəsində öldürülür.

Əsərdə oxucunun diqqətini çəkən məqamlardan biri də Kanın daxilində yaranan kimlik axtarışıdır. Almaniyada yaşayan Kanın dinə ateist münasibəti əsər boyunca dəyişikliyə məruz qalır və əsərin müəyyən hissəsindən sonra dinə, mistikaya inamı artır. Sanki, mədəniyyətlərarası böhran yaşayan qəhrəman daxili boşluğunu doldurmağa çalışır. Əsərin digər qəhrəmanı İpəyə olan sevgisi və siyasi məsələrin içində burulğana düşən Ka bu mübarizədən qalib çıxa bilmir. Bütün bu məsələlərin içərisində oxucu Kanın şəxsiyyətini tam anlaya bilmir.

Əsərdə baş verən bəzi siyasi məsələlər azərbaycanlı oxucunu düşündürməyə vadar edir. Çünki, Qars və Qarabağın ortaq "erməni" məsələsi vardır. Qars və Qarabağ ərazi olaraq hər ikisi Ermənistanla sərhəddə yerləşir. I Qarabağ Müharibəsindən sonra, Türkiyə Ermənistanla sərhəddi bağlamış, ölkə ilə əlaqəni tamamilə kəsmişdir. Çünki, bütün tarixi mənbələr həmin ərazilərin qədim türk torpağı olduğunu sübut etsə də, ermənilər və ruslar daim həmin torpaqların iddiasında olmuş, ilk fürsətdə işğal etmiş, soyqırım törətmişdir. Yazıçı əsərdə məkan olaraq yalnız Qarsı seçsə də, ermənilərin iddiasında olduğu torpaqlar qədim Anadolu ərazisidir. Uzun müharibələrdən sonra əldən-ələ keçmiş Qars sanki dövlətin nəzərindən kənarda qalmış, əhalisi yoxsul, təhsilin səviyyəsi çox aşağı olmuşdur. Çayxanalar axşama kimi işsiz insanlarla doludur. Hər kəs evinə çörəkpulunu hansı yolla qazanıb aparacağı barədə baş sındırır. Elə bu səbəbdən də şəhərdə əslində kənardan məharətlə idarə olunan bir çox siyasi qruplar rahat fəaliyyət göstərə bilirlər. Burada insanlar özləri də hiss etmədən hansısa təşkilatın oyuncağına çevrilə bilir, qardaş qardaşa qəsd edir. Əsərdə cərəyan edən həmin siyasi vəziyyət 90-cı illərin əvvəllərində Azərbaycanda baş verən hadisələri xatırladır. Həmin illərdə yenicə müstəqillik əldə edən, ordusu qurulmamış ölkəmizə kənardan edilən müdaxilələr xalqı yanlış istiqamətlərə yönəltmiş və yaranmış qarışıq vəziyyətdən istifadə edən Ermənistan və Rusiyanın birgə siyasəti nəticəsində Qarabağ işğal olunmuşdur.

1878-ci ildə Osmanlı-Rus müharibəsinin nəticəsi olaraq Qars ruslara təhvil verildi. Çar Rusiyası devrilənə qədər onun tərkibində daha sonra qısa müddət Böyük Britanıyanın idarəsinə keçmiş, onlar isə ərazini ermənilərə təhvil vermişlər. Təqribən bir ilə qədər erməni əsarətində olan əraziyə hələ Çar Rusiyasının dövründən ermənilər köçmüş, yaşamışdır. 1920-ci ildə imzalanmış Gümrü müqaviləsi ilə torpaqlar yenidən əzəli sahibinə qayıtmışdır. Orhan Pamukun "Qar" romanında bəhs etdiyi boş qalmış erməni evləri 1990-cı illər Qarabağ məsələsindən sonra Ermənistanla sərhədləri bağlayan Türkiyə ərazisində yaşamaq istəməyən ermənilərin evləridir. Hansı ki, Qars ərazisindən qaçmış ermənilərin bir çoxu sonralar Qondarma Dağlıq Qarabağ Respublikasına köçürülmüşdür. Türkiyənin kiçik bir maketi olan Qarsda baş verən hadisələr yalnız postmoderin roman vasitəsi ilə açıla və ya oxucuya təqdim oluna bilərdi. Çünki, postmodern romanın bədii əsnəkliyi imkan verir ki, iç-içə verilmiş hadisələr zamandan və məkandan aslı olmayaraq oxucuya təqdim olunsun.

Yazıçının digər siyasi məsələlərə üstüörtülü toxunduğu roman isə "Mənim adım qırmızıdır" (Pamuk, 1998) əsəridir. Orxan Pamuk əsərin girişində müqəddəs kitab "Qurani Kərim"in "Bəqərə" surəsindən belə bir cümlə vermişdir: "Şərq və Qərb Allahındır." (Pamuk, 1998, Giriş) Bəşəri problemə çevrilən Şərq-Qərb qarşıdurması əsərin əsas ideyasını təşkil edir. Şərq aləminin Qərbin yaratdığı yeniliklərə birmənalı olaraq mənfi münasibət bəsləməsi, dinin təsiri ilə qəliblərdən çıxa bilməməsini oxucularına çatdırmağa çalışan Orxan Pamuk bu idealogiyaların sintezindən mükəmməl, unikal bir cəmiyyət qurula biləcəyinə işarə verir. Ancaq təəssüf ki, bu müşkül məsələdir. Əsərdə Şərq minyatür sənətindən və Osmanlı dövründə bu sənətə verilən diqqətdən söhbət gedir. Osmanlı sarayının minyatür ustaları bir-birindən mükəmməl əsərlər ərsəyə gətirməkdən ötrü az qala "yarışa" girirlər. Ustalara rəhbərlik edən Ənıştə əfəndi və onun şəyirdi Zərif usta öldürülür. Bunun başlıca səbəbi isə usta və şəyirdinin Qərbin təsiri altında yeni minyatür numunələri yaratmaqları idi.

Beləliklə, Orxan Pamuk eyni ilə "Qar" əsərində olduğu kimi "Mənim adım qırmızıdır" romanında da radikal islamçıların cəmiyyəti necə geridə qoyduğunu bir daha göstərməyə çalışır. Yazıçının seçdiyi məkan XVI əsr Osmanlı sarayı olsa da bu problemlər çağdaş dövr Şərq dünyası üçün hələ də aktualdır. Pamuk modernləşmə prossesinin Şərq cəmiyyəti üçün necə ağrılı, çətin məsələ olduğunu oxucusuna çatdırır. Bu siyasi prosses nəinki Şərqlə Qərbin ortasında yerləşən Türkiyə, eləcə də Azərbaycan cəmiyyəti üçün tanışdır. Yazıçı insan olmaq məsələsinə də həssaslıqla toxunur. Bunun necə çətin olduğunu oxucusuna göstərməyə çalışır. Hətta Şərqlə Qərbin birliyinə münasibətini qadının dilindən belə bir şeirlə çatdırmağa çalışır:

*Qərarsız qəlbim deyir ki, Şərqdə ikən Qərbdə,*
*Qərbdə ikən Şərqdə olmaq istəyirəm.*
*Kişiyəmsə qadın, qadınamsa kişi olmaq istəyirəm,*
*deyir başqa tərəfdən.*
*Nə çətinmiş insan olmaq, daha çətini insan kimi bir həyat.*
*Həm qarşımda, həm arxamda, həm Şərqimlə, həm Qərbimlə,*
*Zövq almaq istiyirəm.* (Pamuk, 1998, s.403)

Orxan Pamukun "Qərarsız qəlbim..." parçası postmodern dövrdə fərdin siyasi və mədəni kimlik böhranını poetik formada ifadə edir. Müəllifin "Şərqdə ikən Qərbdə, Qərbdə ikən Şərqdə olmaq istəyirəm" sətiri postmodern insanın sabit kimlikdən uzaq, mədəni və ideoloji sərhədlər arasında qalan vəziyyətini göstərir. Burada "Şərq" və "Qərb" yalnız coğrafi anlayış deyil, həm də iki fərqli dəyər sisteminin, iki siyasi təfəkkür tərzinin simvoludur. Pamukun qəhrəmanı bu iki mədəni-siyasi dünyanı özündə birləşdirmək, lakin eyni zamanda heç birinə tam mənsub olmamaq dilemması içindədir. Bu vəziyyət postmodern siyasətin insan üzərində yaratdığı kimlik parçalanmasının bədii təzahürüdür. "Nə çətinmiş insan olmaq, daha çətini insan kimi bir həyat" ifadəsi fərdin siyasi ideologiyalarla müəyyənləşdirilmiş kimlik modellərinə qarşı autonom varlıq kimi yaşamaq istəyini göstərir. Beləliklə, Pamukun poetik düşüncəsində siyasət və kimlik problemi ayrılmaz şəkildə birləşir; insan nə Şərq, nə də Qərb dəyərlərinə tam uyğunlaşa bilir və nəticədə sabit kimlikdən azad, lakin daimi qərarsızlıq içində yaşayan postmodern subyektə çevrilir. Bu şeir parçasında Orxan Pamuk sanki öz prototipini yaratmışdır. Çünki Pamuk həyatı boyu Şərq və Qərb torpaqları arasında özünü tapmağa çalışmışdır. Ölkəsində təqibə məruz qalmış, daim müzakirə obyekti olmuşdur. Qərbdə şərqli, şərqdə qərbli olmuşdur.

Pamukun pandemiya dövründə çap etdirdiyi "Vəba gecələri" (Pamuk, 2021) romanı onun yaradıcılığında siyasi və tarixi məsələlərin postmodern rakursdan təqdim olunmasının bariz nümunəsidir. Əsər forma və məzmun baxımından postmodern tarixi roman janrına aiddir, çünki burada tarixi hadisələr xronoloji ardıcıllıqla deyil, dekonstruksiya edilmiş şəkildə verilir. Yazıçı reallıqla uydurmanı, sənədlə təxəyyülü birləşdirərək, oxucunu həm tarixi, həm də simvolik bir məkan olan Minger adasına aparır. Vəba xəstəliyinin yayıldığı bu ada, əslində, yazıçı təxəyyülünün məhsuludur; real məkanda mövcud olmasa da, Osmanlı imperiyasının son dövrlərindəki siyasi və ideoloji gərginliyin metaforik modeli kimi çıxış edir. XIX əsrin sonu və XX əsrin əvvəllərində bütün dünyada yayılan vəba epidemiyası bir çox ölkələrdə karantin rejimlərinin yaranmasına səbəb olmuş, bu da dövlətlə xalq arasında siyasi nəzarət və güvən böhranı yaratmışdır. Pamuk bu tarixi faktı istifadə edərək, imperiyanın zəifləməsini, idarəçilik böhranını və hakimiyyətin öz legitimliyini qorumaq üçün tətbiq etdiyi avtoritar metodları incə şəkildə tənqid edir. Əsərin fonunda Osmanlı imperiyasının qeyri-sabitliyi, taxt-tac uğrunda gizli siyasi oyunlar və V Muradın taxtdan endirilməsi hadisəsi diqqət mərkəzinə çəkilir.

Osmanlı hökmdarları V Murad və II Əbdülhəmid obrazları romanda metaforik məna daşıyır. Yazıçı bu iki obraz vasitəsilə fərqli idarəçilik modellərini və siyasi düşüncə tərzlərini qarşılaşdırır. V Murad islahatçı və liberal düşüncəli bir lider kimi təqdim olunur, II Əbdülhəmid isə sərt və avtoritar idarəçilik rejiminin simvolu kimi səciyyələndirilir. Müəllif göstərir ki, Osmanlı imperiyasında liberal ideyalar və modernləşmə cəhdləri qısaömürlü olmuş, nəticədə rejim avtoritar istiqamətə yönəlmişdir. Əsərdə baş verən siyasi hadisələrin içərisində V Murad zəif və gücsüz görünür, II Əbdülhəmid isə sərt idarə üsulu ilə müxalifəti yatırdır. Bununla belə, Pamuk Minger adasının Osmanlıdan qopmasını

Əbdülhəmid rejiminin uğursuzluğu kimi təsvir edir və beləliklə, totalitar idarəçiliyin sonda dağılmaya gətirib çıxardığını bədii şəkildə göstərir. Bu hadisə həm imperiyanın siyasi parçalanmasını, həm də ideoloji böhranını təcəssüm etdirir.

Əsərdə yer alan ədzaçı Misyö Corc obrazı da xüsusi simvolik əhəmiyyət daşıyır. Əslən kiprli olan bu obraz roman boyunca bir növ "kənardan baxış" funksiyasını yerinə yetirir. O, hadisələrə Osmanlıdan kənar, obyektiv mövqedən yanaşır və bəzi tarixi həqiqətləri oxucuya məhz onun dili ilə çatdırılır. Misyö Corc deyir: "...siz də bilirsiniz ki, Əbdülhəmid Kipr, Girit kimi, bu adanı da çoxdan gözdən çıxardıb" (Pamuk, 2021, s.273). Bu fikir, əslində, Osmanlı imperiyasının artıq öz ərazilərinə və xalqına qarşı məsuliyyət hissini itirdiyini, siyasi cəhətdən dağılma mərhələsinə qədəm qoyduğunu göstərir. Bu sözlərin ardınca Osmanlının Minger adasına təyin etdiyi nümayəndə Vəli Paşanın ağlına Namiq Kamalın "Vətən və yaxud Silistrə" əsəri düşür. Pamuk burada XIX əsr Osmanlı ədəbiyyatının siyasi və milli ideyalarını öz romanına intertekstual şəkildə daxil edir. Bu tamaşa Türkiyə ədəbiyyatında vətənpərvərlik ideyasının ən güclü bədii ifadələrindən biridir. Romanda tamaşanın qəhrəmanı İslam bəyin dilindən səslənən sözlər sitat kimi verilir: "Dövlətin, qalalarını, adalarını, məmləkət və vilayətlərini itirə-itirə geri çəkilməsi yüz əlli ildir davam edir." (Pamuk, 2021, s.273). Bu cümlə təkcə Osmanlının tənəzzülünü deyil, həm də siyasi məsuliyyətsizliyin və imperiya ideyasının çöküşünü ifadə edir.

Pamukun bu romanında siyasət yalnız tarixi hadisələrin fonu kimi deyil, həm də fikir və dəyər sistemlərinin toqquşma məkanı kimi təqdim olunur. "Vəba gecələri" həm postmodern, həm də postkolonial bir roman kimi imperiya ideologiyasının dağılmasını, "mərkəz"in gücünü itirməsini və "əyalət"in öz varlığını təsdiq etməyə çalışmasını bədii şəkildə əks etdirir. Yazıçı burada siyasi gücün müvəqqətiliyini, insan iradəsinin isə dəyişiklik yarada biləcəyini göstərir. V Murad və Əbdülhəmid obrazları vasitəsilə Pamuk həm tarixi, həm də müasir siyasətin mahiyyətini açır: bir tərəfdə islahatçı azadlıq ideyası, digər tərəfdə qorxu və nəzarətə əsaslanan rejim. Bu baxımdan "Vəba gecələri" romanı yalnız keçmişin hekayəsi deyil, həm də indiki dövrün siyasi metaforası kimi oxuna bilər.

Orxan Pamukun "Qara Kitab" romanı zahirən bir şəxsin həyat yoldaşını və qohumunu axtarması kimi təqdim olunsa da, əsərin dərin qatlarında bu axtarış Türkiyənin özünü, kimliyini və keçmişini anlama cəhdi kimi yozulur. Əsərin baş qəhrəmanı Qalibin İstanbul küçələrində keçirdiyi daxili və fiziki səyahət, əslində, bir millətin tarix, din və modernlik arasında itirilmiş kimliyini yenidən bərpa etməyə çalışması ilə paralel şəkildə təqdim edilir. Roman boyunca müəllif qəhrəmanın daxili monoloqları və simvolik hadisələr vasitəsilə cəmiyyətin mediatik manipulyasiyalara, siyasi nəzarətə və ideoloji yönləndirmələrə necə təsir etdiyini göstərməyə çalışır. Cəlal obrazının yazdığı köşə yazıları vasitəsilə isə müəllif köhnə Osmanlı dəyərlərinə bağlılıqla çağdaş modernist baxışlar arasındakı ziddiyyəti nümayiş etdirir. Pamuk bu əsərdə siyasi hadisələri birbaşa təqdim etməsə də, fərdin öz kimliyini tapmaqda çəkdiyi çətinliklər fonunda cəmiyyətin siyasi və ideoloji basqılar altında yaşadığı böhranı simvolik dillə ifadə edir. Beləliklə, "Qara Kitab" yalnız bir fərdin yox, bir toplumun öz ruhunu və mənəvi dayaqlarını axtarmasının bədii ifadəsinə çevrilir.

Beləliklə, Orxan Pamukun müxtəlif romanlarında siyasi motivlər yalnız konkret tarixi hadisələrin deyil, eyni zamanda insan psixologiyası, cəmiyyətin kollektiv yaddaşı və mədəniyyətlərarası qarşıdurmaların kontekstində işlənmişdir. Onun postmodern üslubu sayəsində bu mövzular təkcə bir dövrə və ya məkanla məhdudlaşmır, daha geniş mənada Şərq və Qərb mədəniyyətlərinin toqquşması, fərdi və kollektiv kimliklərin formalaşması, totalitarizmlə mübarizə və insan azadlığının sərhədləri kimi bəşəri suallara çevrilir. Pamukun siyasi məsələlərə yanaşmasında təkqütblü baxışdan uzaq, çoxsəsliliyə əsaslanan, oxucunu fəal düşünməyə çağıran bir yanaşma müşahidə olunur. Bu isə onu çağdaş türk və ümumbəşəri ədəbiyyatın önəmli nümayəndələrindən birinə çevirir.

**Nəticə**

Orxan Pamukun yaradıcılığı müasir türk ədəbiyyatında postmodern estetikanın və siyasi diskursun bədii sintezinin bariz nümunəsidir. Onun "Qar", "Mənim adım qırmızıdır", "Vəba gecələri" və "Qara kitab" romanlarında siyasi problemlərin postmodern yanaşmalarla qələmə alınması

yazıçının həm fərdi estetik dünyagörüşünün, həm də ictimai-siyasi məsələlərə yanaşma tərzinin göstəricisidir. Pamuk bu romanlarda Şərq-Qərb qarşıdurması, kimlik böhranı, dini və ideoloji qütbləşmələr, siyasi manipulyasiyalar və avtoritar idarəçilik kimi məsələləri mürəkkəb məkan və zaman strukturları vasitəsilə təqdim edir.

"Qar" romanında Türkiyənin yaxın tarixində yaşanmış siyasi hadisələr simvolik obrazlar, polifonik təqdimat və dekonstruktiv yanaşmalarla əks etdirilir. Qars şəhəri bir növ Türkiyənin siyasi və mədəni maketi kimi təqdim olunur. Əsərdəki çoxsəslilik, qəhrəmanların fərqli ideoloji mövqeləri və hadisələrə müxtəlif baxış bucaqları postmodern ədəbiyyatın əsas göstəricilərindəndir. Yazıçı burada tək bir "həqiqət" təqdim etmək əvəzinə, oxucunu düşünməyə və fərqli fikirləri dəyərləndirməyə sövq edir.

"Mənim adım qırmızıdır" romanı isə tarixilik və sənət fəlsəfəsi fonunda milli kimlik, modernləşmə və ənənə qarşıdurması mövzusunu ön plana çıxarır. Şərq miniatür sənətinin transformasiyası və bu transformasiyanın doğurduğu ziddiyyətlər vasitəsilə yazıçı Osmanlı cəmiyyətindəki müasirliklə ənənə arasında olan konfliktləri bədii şəkildə tədqiq edir. Pamukun burada apardığı əsas fikir ondan ibarətdir ki, sənət və kimlik anlayışları siyasi və ideoloji çərçivələr daxilində daim dəyişkən və mübahisəli olmuşdur.

"Vəba gecələri" romanında isə yazıçı pandemiya fonunda imperiyanın süqutunu, siyasi idarəetmədəki böhranı və müstəqil düşüncə ilə totalitar nəzarət arasında qalan cəmiyyətin faciəsini ustalıqla qələmə alır. Tarixi hadisələrin təxəyyül elementləri ilə yoğrulması, real və metaforik fiqurların bir araya gətirilməsi əsəri həm siyasi, həm də estetik baxımdan dəyərli bir postmodern nümunəyə çevirir. Burada V Murad və II Əbdülhəmid obrazları vasitəsilə islahatçılıq və avtoritarizmin toqquşması simvolik şəkildə təqdim edilir.

Orxan Pamukun "Qara Kitab" romanında isə fərdin kimlik axtarışı fonunda bir toplumun tarixi, mədəni və ideoloji yöndə özünü anlama cəhdini simvolik şəkildə göstərir.

Pamukun romanlarında siyasi məsələlərin açıq təhlili ilə yanaşı, bu problemlərin fərdin həyatına, psixologiyasına və mənəvi dünyasına təsiri də ətraflı şəkildə işlənmişdir. Onun qəhrəmanları yaşadıqları siyasi-mədəni mühitin təsiri altında daxili qarşıdurmalar keçirir, kimlik axtarışına çıxır, sevgi ilə ideologiya, inanc ilə şübhə arasında çarpışırlar. Bu baxımdan Pamukun romanlarında siyasi problemlər təkcə ictimai müstəvidə deyil, həm də fərdi təcrübə səviyyəsində dəyərləndirilir.

Beləliklə, Orxan Pamukun yaradıcılığı postmodern ədəbiyyatın vasitələri ilə siyasi və ictimai problemlərin dərin təhlilinə imkan yaradan zəngin bir mənbədir. Onun romanları təkcə Türkiyə cəmiyyətinin deyil, ümumilikdə Şərq dünyasının tarixi, mədəni və siyasi dilemmalarını bədii-fəlsəfi müstəvidə əks etdirən universal əsərlər kimi qəbul edilə bilər.

Yazarın romanlarında siyasi diskursun postmodern estetika ilə sintezi təkcə ədəbi mətnlər səviyyəsində deyil, həm də ictimai şüurun formalaşması və tənqidi düşüncə bacarığının inkişafı baxımından dəyərli nümunə kimi çıxış edir.

## ƏDƏBİYYAT SİYAHISI

Quliyev, Q. (2012). XX əsr ədəbiyyatşünaslıq konsepsiyaları. Bakı: Çaşıoğlu.
Pamuk, O. (1998). Benim adım Kırmızı (470 s.). İstanbul: İletişim Yayınları.
Pamuk, O. (2002). Kar (436 s.). İstanbul: İletişim Yayınları.
Pamuk, O. (2013). Atamın bavulu (s. 100). Bakı: Qanun nəşriyyatı.
Pamuk, O. (2014). Öteki Renkler. İstanbul: Yapı Kredi Yayınları.
Pamuk, O. (2021). Veba Geceleri (s. 537). İstanbul: Yapı Kredi Yayınları.
Türkiyənin Böyük İl Ensiklopediyası (1989). 2-ci cild. İstanbul.